

**Məmmədxan Əzizxanlı**
hüquqçu, sabiq prokuror, əmək veteranı

# Qarabağda cavab haqqı

***Bildiyiniz kimi biz, KTMT (rusca ODKB) hərbi birliyinin üzvü olan Ermənistan kimi onun, bunun altına yıxılan, ləyaqətsiz, qudurğan, parazit kimi bizə sırınmış qonşumuzun haqqımıza təcavüzündən 192 ildir əziyyət çəkirik.1919-cu ildən üzü bəri saysaq üçüncü (son 30 ildə ikinci) Qarabağ savaşında, Ermənistan, Azərbaycanın döyüş bölgəsi olmayan 182 yaşayış yerinə 27 mindən çox mərmi, 218 raket zərbəsi vurub, nəticədə 94 vətəndaşımız ölüb, 400-dən çoxu yaralanıb. Bu azğınlıqdan sığortalanmağın yeganə yolu "İtin quyruğunu kəsməkdir", çünki bildiyimiz kimi "İt quyruğunu kəsəndən qorxar", necə ki, 44 günə on minlərlə itin quyruğunu kəsdik.***

Əlbəttə, KTMT müqaviləsində deyilmir ki, üzvlərin başqa dövlətə hücumu müdafiə edilməlidir, yox. Deyilir ki, KTMT-nin əsas məqsədi: "...üzv-dövlətlərin sülhünün, beynəlxalq və regional təhlükəsizliyinin, habelə ərazi bütövlüyünün və suverenliyinin müdafiəsidir. " Ancaq, fakt budur ki, öz aralarında tarixi sözləşməyə görə (1878-ci il Berlin müqaviləsindən üzü bəri), Rusiya və Avropa, üstümüzə qısqırdılan aqressor Ermənistana qarşı, öz hüquqlarının müdafiəsini, əks hücumla cavab verilməsini, ona hücum bəhanəsi kimi istifadə edir... Bu səbəbdən də biz, Ermənistan ərazisindən bizə, xüsusilə mülki əhaliyə edilən raket hücumlarına adekvat cavab verməkdən çəkinirik ki, Rusiyanın Ermənistan tərəfdən müharibəyə qoşulmağına bəhanə verməyək. Bu da Ermənistana imkan verir ki, bizə qarşı etdiyi hücuma görə bir hal istisna olmaqla hələlik cəzasız qalsın...

Ermənistan 44 günlük müharibədə hər cür əxlaqsızlıq etdi ki, Rusiyanı öz tərəfindən, bizə qarşı müharibəyə cəlb etsin, ancaq bizim rəhbərlik dişi bağırsağını kəsə-kəsə, çox ağır dözülməzliyə müdrikcəsinə dözdü... itkilərimiz hesabına olsa da bu bəhanəni vermədi. Ancaq, bütün qorunma cəhdlərimizə baxmayaraq, rus ordusu, 10.11.2020-ci il tarixdə, işğaıçı erməniləri qorumaq üçün, ağır döyüş silahlarıyla, "sülhməramlı" adıyla Qarabağa soxuldu və biz də əlacsızlıqdan bu zorakılıqla hesablaşmaq zorunda qaldıq.

***Erməni ləyaqətli düşmən olmadığından döyüş meydanında igidlərimizin qabağından qaçsa da, lakin namərdcəsinə mülki insanlarımızı öldürürdü ki, bizim adekvat da olsa cavabımızı... qaraqışqırıqla özünə hücum kimi qələmə verib öz kriminal hamisini köməyə çağırsın və çağırdı da... Rusiya, erməni tərəfdən müharibəyə aşkar qoşulmaqdan çəkindiyinə görə (çünki döyüş bizim ərazidə gedirdi) "sülhməramlı"adıyla Qarabağa soxuldu...***

Qoy bəzi nağılbazlar bunu nəzərə alsınlar ki, rus zorakılığının dövlət səviyyəsində çılpaqlıqla, vaxtsız deyilməsi qarşı tərəfi vaxtız duyuq salmaqla işimizə daha çox əngəl ola bilər...Bu mənada əslində diplomatiya da bir cür döyüş taktlkasıdır, desək səhv etmərik. Bu gün Rusiya öz zorbalığına güvənərək, Qarabağda özünü yerli hakimiyyət orqanl kimi aparmaqla, açıqcasına separatçıları, terrorçuları dəstəkləməklə, torpağımızda özbaşına döyüş təlimləri keçirməklə bizim suverenliyimizi pozur... Bu haı bizimçün nə qədər aşağılayıcı olsa da vəziyyəti tam öz xeyrimizə dəyişənədək gözləməliyik...ancaq yubanmamalıyıq da...

Qısası, biz də rus ayısının əlinə bəhanə verməmək dərdindən və hələlik onunla pəncələşmək imkanımızın olmaması səbəbindən, ermənilərin, döyüş bölgəsi olmayan Tərtər, Gəncə, Yevlax, Ağdam, Ağcabədi, Mingəçevir, Giləzi, Bakı və s. 182 yaşayış yerimizi mərmi və raketlərlə vurmasına, təhlükəsizliyini qorumalı olduğumuz vətəndaşlarımızı öldürməsinə, yaralamasına, dağıntılara quru bəyanətlər verməklə əlacsızlığımızı göstərirdik... bu, məntiqsiz olsa da, lakin tutduğumuz mövqe və yol gəldiyimiz faktnəticə qarşısında artıq başqa çıxış yolumuz qalmamışdı, ən optimal yol daha böyük ziyandan, az ziyanı seçməklə... baş verənlərlə hesablaşmaq idi. Beləliklə, bircə səhv mövqe tutmağımızla bu məsələdə çıxmaza dirəndik...




Əslində isə biz, Ermənistanın sivillərimizə hücum etməsini bütün KTMT və BMT üzvlərinə, bildirməklə, həmən atəş nöqtələrini dərhal da susdurmalı idik. Bu zaman kimsə də bunu KTMT üzvünə təcavüz kimi qiymətləndirə bilməzdi, çünki ilk hücum edən qarşı tərəf olduğundan bizim cavabımız təbii və qanuni sayılacaqdı. Üstəgəl, biz onun torpağına keçmirik, sadəcə aqressiyadan müdafiə olunuruq...

Dünya təcrübəsindən bəlli olduğu kimi, hər bir dövlət öz vətəndaşlarına, ərazisinə, əmlakına, milli maraqlarına ziyan vuran qüvvələri, terrorçuları harada olmasından asılı olmayaraq zərərsizləşdirmək, tutmaq, yaxud məhv etmək hüququndan imkanları daxilində, gen, bol istifadə edirlər. Məsələn, Türkiyənin PKK terrorçubaşı Abdulla Öcalanı Keniyada tutub mühakimə etməsi, Suriyadakı, İrakdakı, İrandakı terror yuvalarını bombalamaqla vurması, ABŞ-ın Əl-Qaidə terrorçubaşı Bin Ladeni Pakistanda əməliyyat keçirməklə məhv etməsi, İsrailin Suriya ərazisində, özünə qarşı fəaliyyət göstərən İranın terror qruplaşmalarını vurması, Rusiya Fedarasiyasının Hərbi Doktrinasının 31-ci maddəsinin Rusiya maraqlarını müdafiə məqsədi ilə dövlət sərhəddindən kənarda hərbi qüvvələrdən istifadə edilməsini nəzərdə tutmasını Qarabağ, Osetiya, Acarlstan, Dnestryanı, Donbas, Luqansk, Krım timsalında reallaşdırılması... Əlbəttə, obyektiv şərtlər daqxilində bu, təbii, qanuni, ədalətli və normaldır. Ancaq, məhz obyektiv şərtlər daxilində, daha rusun özünün yaratdığı saxta bəhanələrdən istifadə etməklə, yox...

***Azərbaycan vətəndaşının və Azərbaycan Respublikası Dövlətinin də eynən beləcə, özünü və milli maraqlarını qoruma hüququ vardır. Bu hüquq təbii olmaqla yanaşı həm də qanunidir, belə ki, Konstitusiya, milli qanunlar və hamılıqla qəbul olunmuş beynəlxalq müqavilə öhdəliklərinə əsaslanır.***

Azərbaycan Respublikası Konstitusiyasının "Yaşamaq hüququ" adlı 27-ci maddəsi:

"I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır."

Azərbaycan Respublikası Konstitusiyasının "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi" adlı 26-cı maddəsi:

"I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir."

Azərbaycan Respublikası Hərbi DoktrinaslnIn 33-cü maddəsi: "Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində tədbirlər və vəzifələr Azərbaycan Respublikasının bütün qüvvə, vasitə və ehtiyatları ilə həyata keçirilir."

Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1948-ci il dekabrın 10-da qəbul olunmuş "Ümumdünya İnsan Hüquqları Bəyənnaməsi" nin 3-cü maddəsi: "Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir."

04.11.1950-ci il tarixdə, Romada qəbul olunmuş "Avropa İnsan Hüquqları Konvensiyası"nın "Yaşama hüququ" adlı 2-ci maddəsinin 1-ci bəndi: "Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz."

Azərbaycan Respublikası vətəndaşının ona qəsd edənə, ziyan vurana cavab haqqı isə konkret olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 39-cu maddəsində göstərilmişdir.

"36.1. Zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır."

Bu qanuni əsaslarla, bizim vətəndaşlarımızı öldürən, onlara fiziki, yaxud maddi ziyan vuranlara, yəni, bu gün ermənilərə və onun "bratvalarına" harada yerləşməsindən asılı olmayaraq, onların atəş nöqtələrini susdurmaqla adekvat (qəsdə uyğun) cavab verilməlidir. Bu cavab hüququnun həyata keçirilməsi barədə silahlı qüvvələrə əmr vermək isə, Ali Baş Komandan kimi Azərbaycan Respublikası Prezidentinin vəzifə borcudur, çünki, Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin III hissəsinin tələbinə görə, "Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır."

***Əgər, tələblərinə əməl olunacağı təqdirdə sadalananları qaydalı oyun adlandırmaq olarsa da, lakin beynəlxalq münasibətlərdə reallıq - qaydasız oyunu göstərir...***

***Odu ki, biz, bu burulğandan salamat çıxmaq, varlığımızı qorumaq üçün əslində zorakılıqla, yəni qaydasız oyunla Qarabağa soxulmuş, erməni himayəçisi, müttəfiqi, rus işğalçılarının "sülhməramlı" oyununu pozmalıyıq. Bununçün tozanağ, hozuluq, şüarçılıq, qarayaxma işə yaramaz, öncə içimizi işimizə yaramayanlardan təmizləməli, düşmənə qarşı ellikcə bir olmalı, düşmənlə ağılla, təmkin və tədbirlə davranmalı və yubanmadan bütün fürsətlərdən yararlanmalıyıq.***

Çatışmazlıqlarımızı isə, bacardıqca, yavaş-yavaş çözəcəyik, darıxmayın... bunu, yeni yaranmış reallıq özü diqtə edəcək.

Biz, qaydasız oyunçulara qalib gəlmək üçün Azərbaycan Respublikası Konstitusiyasına, Hərbi Doktrinamıza və digər qanunlarımıza uyğun olaraq:

1. Laçın rayonunda, Ermənistanla aramızdakı dövlət sərhəddində Gömrük Məntəqəmizi, hərbi və təhlükəsizlik qüvvələrimizin qaravulunu qoymaqla ərazimizə gediş, gəlişin qanuniliyini hamı üçün eyni qaydada təmin etməli,

2. Qarabağda pasport rejimini yoxlamaqla öz suveren hüququmuzu həyata keçirməli, cinayətkarları məsuliyyətə cəlb etməli, qarabağlı olmayan erməniləri və başqalarını ölkədən çıxarmalı, bununla da rusun özbaşnalığını, yəni münaqişəni daimi saxlamaq oyununu pozmalıyıq.

3. Rusiya "sülhməramlılarının" öz öhdəliklərinə uyğun erməni hərbçilərini 01.12.2020-ci il tarixədək, tam olaraq Qarabağdan çıxarmamaları, habelə 26.11.2020-ci il tarixdə, 150+62 erməni terrorçusunu, nəzarətlərində olan Laçından, Xocavənd ərazisinə buraxmaqla Azərbaycana qarşı ağır nəticələrə səbəb olan diversiya törətmələrinə şərait yaratmaları, sülhməramlı səlahiyyətlərinə aid olmayan qanunsuz davranışlar onların cinayətkarlarla iş birliyinin sübutu kimi qiymətləndirilməli və bu əsaslarla rus "sülhməramlılarına" etimadsızlıq qırmızı kartı göstərilməklə Qarabağdan çıxarılmalıdır.

***Türkiyə,Pakistan real köməyimiz, rusun rəqibi Avropa və Amerikanı isə, maraqlarımızın uzlaşdığı qədər mənəvi dəstəkçimiz kimi, lakin Qarabağa girmələrinə əsla imkan vermədən... bu işə cəlb edə bilərik. Artıq bundan sonra rus bizimlə açıq müharibəyə girə bilməz, bu bəhanəsiz, açıq işğal olardı ki, bunun da gözlənilən ağır nəticəsi ona sərf eləməz...çünki, real itkisi, ehtimal olunan boş nüfuz qazancından qat-qat çox olardı... Azca ağlı olansa buna getməz, çünki getsə tam çökər...***

***Rusiyadakı vəziyyət daim diqqətdə saxlanılmalı və ona uyğun, yubanmadan hərəkət edilməlidir.***

***Bu qanuni əsaslarla, bizim vətəndaşlarımızı öldürən, onlara fiziki, yaxud maddi ziyan vuranlara, yəni, bu gün ermənilərə və onun "bratvalarına" harada yerləşməsindən asılı olmayaraq, onların atəş nöqtələrini susdurmaqla adekvat (qəsdə uyğun) cavab verilməlidir. Bu cavab hüququnun həyata keçirilməsi barədə silahlı qüvvələrə əmr vermək isə, Ali Baş Komandan kimi Azərbaycan Respublikası Prezidentinin vəzifə borcudur, çünki, Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin III hissəsinin tələbinə görə, "Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır"***